**Mirzə Şəfi Vazeh – 230**

# Gəncə şair oğlunu ehtiramla yad etdi

**"Mirzə Şəfi Vazeh və dünya ədəbiyyatı" mövzusuna həsr olunan konfrans Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyası və onun Gəncə bölməsi tərəfindən birgə təşkil edilib.**



Elmi tədbirə Gəncə bölməsinin əməkdaşları ilə yanaşı, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun, Lənkəran Regional Elmi Mərkəzin, həmçinin Naxçıvan və Mingəçevir Dövlət universitetlərinin alim və tədqiqatçıları da qatılıblar.

İştirakçılar konfransın keçirildiyi AMEA Gəncə Bölməsinin böyük iclas salonunun foyesində elmi nəşr və tarixi sənədlərdən təşkil edilmiş sərgiyə baxıblar. Mirzə Şəfi Vazehin yaradıcılığı ilə bağlı olan, Almaniyada saxlanılan əlyazmaların fotosurətləri böyük maraq doğurub.

Tədbiri giriş sözü ilə AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev açaraq qeyd edib ki, böyük şair və maarifçi Mirzə Şəfi Vazeh ədəbiyyatımızın görkəmli nümayəndəsi olmaqla yanaşı, Azərbaycanın poetik düşüncə və ənənələrinin Avropada tanınmasında böyük rolu olan mütəfəkkirdir.

Akademik Fuad Əliyev ulu öndər Heydər Əliyevin milli maraqlarımızın və mənəvi-ideoloji intibahımızın hədəfləri naminə strateji xəttinin bir hissəsi olaraq, tariximizdə və ədəbiyyatımızda özünəməxsus yer tutmuş görkəmli şəxsiyyətlərin tanıdılması və irsinin əsaslı şəkildə öyrənilməsinin vacibliyinə xüsusi diqqət yetirdiyini vurğulayıb.

Sonra konfransın plenar iclasının məruzələri dinlənilib. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutundan Aytən Qurbanova "Mirzə Şəfi Vazeh və türk dünyası", AMEA Gəncə Bölməsi Humanitar Tədqiqatlar İnstitutundan Ruziyə Quliyeva "Divani-hikmət" ədəbi məclisi", bölmənin Nizami Gəncəvi Mərkəzindən Əlimuxtar Muxtarov "Mirzə Şəfi Vazeh irsinə dövlət qayğısı: Ulu öndər Heydər Əliyevdən Prezident İlham Əliyevə", AMEA Lənkəran Regional Elmi Mərkəzindən Fəranə Mikayılova "Divani-hikmət" ədəbi məclisi mədəniyyətlərarası körpüdür", AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzindən Aynur Mirişli "Mirzə Şəfi dünyasi" və Respublikanın Əməkdar artisti, gəncəli bəstəkar Məmməd Cəfərov "Mirzə Şəfi Vazehin sözlərinə yazılmış «Var» romansının təhlili" mövzularında çıxışlar ediblər.

Tədbirdə "Var" romansı Gəncə Musiqi Kollecinin tələbəsi olan gənc vokalçının ifasında səslənib. Gəncə Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov böyük şair və maarifçi Mirzə Şəfi Vazehin 230 illik yubiley tarixinə həsr olunan bu konfransın işini yüksək qiymətləndirib və iştirakçılara uğurlar arzulayıb.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**